**11.** Lüğətin köməyi ilə düzgün yazın.

*Tövsi.ə, ehti.at, mədəni.ət, əbədi.ət, ədəbi.at, fərzi.ə, qafi.ə, tərbi.ə, mali.ə, xi.aban, səvi.ə, la.ihə*

**Yazılmalıdır**

| "y" ilə | | "yy" ilə |
| --- | --- | --- |
| ........................ | | ........................ |
| ........................ | | ........................ |
| ........................ | | ........................ |

**12.** Altından xətt çəkilmiş sözləri elə ifadələrlə əvəz edin ki, fikir düzgün olsun.

- *İgidlərimiz döyüşdə qəhrəmancasına öldülər.*
- *S.Vurğun 1956-cı ildə xərçəng xəstəliyindən həlak olmuşdur.*
- *Ç.Mustafayev Qarabağ uğrunda gedən döyüşləri lentə alarkən vəfat etmişdir.*
- *Aldığı yaradan gözlərini əbədi qapadı.*
- *İşıq düşməsin deyə gözlərinin üstünü yumdu.*
- *Baş verən faciəni görməmək üçün əlləri ilə gözlərini bağladı.*

**13.** 20 Yanvar faciəsi ilə bağlı hər hansı bir sənədli film izləyin. Həmin filmi müzakirə edin və verilmiş fikirləri tamamlayın:

*Mən "Qanlı Yanvar" filmini bəyəndim (bəyənmədim), çünki ...*

*Mən filmi izlədikcə ...*

*Mən rejissor olsa idim, bu filmi ...*

*Film məndə belə təəssürat oyatdı ki, ...*

*Hadisələrin təqdimi ..., çünki ...*

*Aşağıdakı fikri tamamlayın.*

*Bir daha belə faciələrin baş verməməsi üçün ... .*

**14.** 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakı şəhərində baş vermiş faciə haqqında məlumat toplayın:

- *Həmin hadisənin başvermə səbəblərini araşdırın.*
- *Hadisənin nəticələri barədə mülahizələrinizi yazın.*
- *Həmin hadisənin sizdə oyatdığı təəssüratı əks etdirin.*